BUILDING TRUST

# MƏHSULUN MƏLUMAT VƏRƏQİ

# SikaMur®-100 Blockfix AAC AZ

Sement əsaslı qaz-beton (AAC) blok yapışdırıcısı və hörgü materialı

## TƏSVİR

SikaMur®-100 AAC Blockfix su əlavə edilməklə istifadəyə hazır vəziyyətə gətirilən sement əsaslı hörgü materialıdır. Tərkibində sement, dərəcələnmiş qum, iş qabiliyyəti və yapışmanı təkmilləşdirən, suyun saxlama qabiliyyətini artıran əlavələr var.

## İSTİFADƏ YERLƏRİ

SikaMur®-100 Blockfix AAC AZ, 6 mm-ə qədər olan qalınlıqlarda incə təbəqə yayma üsulu ilə tətbiq olunan,  Avtoklavlanmış Qaz Beton (AAC) bloklarının hörgüsü üçün istifadə edilən məhsuldur. Xarici və daxili tətbiqlərdə istifadə olunur.

## ÜSTÜNLÜKLƏRİ

- Müxtəlif növ bloklara yaxşı yapışma (qaz-beton, daş, kərpic, mişar daşı və s.)
- Yaxşı su saxlama, tiksotrop qatılıq
- Uzun müddətli iş imkanı
- Asan hazırlanır və asan tətbiq olunur.

## TƏSDİQLƏR VƏ SERTİFİKATLAR

AZS Uyğunluq Sertifikatı

## MATERIAL MƏLUMATI

| | |
|---|---|
| **Kimyəvi əsası** | Xüsusi əlavələrlə modifikasiya edilmiş sement əsaslı toz qarışığı. |
| **Qablaşdırma** | 25 kg-lıq torba |
| **Görünüş və rəng** | Toz, boz |
| **Saxlama Müddəti** | İstehsal tarixindən etibarən 12 ay. |
| **Saxlama Şərtləri** | Açılmamış və zədələnməmiş qablaşdırmada, quru və sərin şəraitdə +5°C və +30°C temperatur aralığında saxlanmalıdır. |
| **Maksimum dənəcik ölçüsü** | $D_{max}$: 0.5 mm |

## TEXNİKİ MƏLUMATLAR

| | | |
|---|---|---|
| **Dartma yapışma gücü** | ≥ 0.5 N/mm² | (EN 1542) |
| **Sürüşmə müqaviməti** | ≤ 0.5 mm | (EN 1308) |

## TƏTBİQ MƏLUMATI

| | |
|---|---|
| **Qarışdırma nisbəti** | 25 kq-lıq torba üçün 5.5 - 6 lt su, (Su/toz nisbəti: 0.22 - 0.24) |
| **Sərfiyyat** | ~1.5-2.5 kg/m² |

| | |
|---|---|
| **Təbəqə qalınlığı** | Min. 1mm / Maks. 6mm / Ortalama ~3mm |
| **Ətraf mühit temperaturu** | Min. +5 °C / Maks. +35 °C |
| **Səthin temperaturu** | Min. +5 °C / Maks. +35 °C |
| **İstifadə müddəti** | ≈ 20 dəqiqə ( +20°C-də) |
| **Tətbiq müddəti** | ~ 120 dəqiqə (+20°C-də ) |
| **Təzə qarışığın Sıxlığı** | ~ 1.6 kg/lt (+20°C-də) |

## MƏHSUL MƏLUMATLARININ ƏSASLARI

Bu məlumat vərəqində göstərilən bütün texniki məlumatlar laboratoriya sınaqlarına əsaslanır. Faktiki ölçülmüş məlumatlar nəzarətimizdən kənar vəziyyətlərə görə dəyişə bilər.

## DİQQƏT EDİLMƏLİ MƏHDUDİYYƏTLƏR

- Tövsüyyə olunan su miqdarı aşılmamalıdır.
- Hazırlanmış və təmiz səthlərə tətbiq edilməlidir.
- Maksimum tətbiq qalınlığı aşılmamalıdır.
- Yeni tətbiq edilmiş səth günəşə, yağışa və şaxtaya qarşı muhafizə edilməlidir.
- Çox hopduruculu səthlərdə SikaWall® astardan istifadə edilməlidir.
- Hava teperaturundan asılı olaraq kürlənmə müddəti azala və ya arta bilər.

## ƏTRAF MÜHİT, SAĞLAMLIQ VƏ TƏHLÜKƏSİZLİK

İstifadəçi, hər hansı məhsuldan istifadə etməzdən əvvəl ən son müvafiq Təhlükəsizlik Məlumat Vərəqi (SDS) ilə tanış olmalıdır. Təhlükəsizlik Məlumat Vərəqi (SDS), fiziki, ekoloji, toksikoloji və digər təhlükəsizliklə bağlı məlumatları təqdim edir, kimyəvi məhsulların təhlükəsiz istifadəsi, saxlanması və utilizasiyası ilə bağlı məlumat və məsləhətlər verir.

## TƏTBİQ TƏLİMATLARI

### SƏTHİN KEYFİYYƏTİ/ÖN HAZIRLIQ

Blok və hörgü daşlarının səthi, təmiz, müqavimətli, yağ,kir, sement qalığı və zəif tutunmuş hissəciklərdən təmizlənmiş olmalıdır. Aşırı hopduruculu səthlər astarlanmalı və ya nəmlədirilməlidir.

### QARIŞDIRMA

Tələb olunan tututarlılığa uyğun su miqdarı qarışdırma qabına qoyulur, SikaMur®-100 Blockfix AAC AZ toz qarışımı yavaş-yavaş əlavə edilərək elektirkli qarışdırıcı çalışdırılır. 3 dəqiqə ərzində, yekcins və topaqsız qarışım əldə olunanadək qarışdırılaraq istifadəyə hazır hala gətirilir. Aşağı sürətli (<500 rpm) iki avarlı qarışdırıcılardan istifadə tövsiyə olunandır. Sərbəst düşməli beton qarışdırıcısı istifadə olunmamalıdır. Torbanın bütövlüklə qarışdırılması, isti hava şərtlərində sərin su ilə qarışdırılması məqsədə uyğundur.

### TƏTBİQ

SikaMur®-100 Blockfix AAC AZ, tələb olunan qalınlıq üçün uyğun ölçülü daraq mala vasitəsi ilə səthə çəkilir. Vahid qalınlıq tənzimlənərək hörgü bloku təbəqə üzərinə yerləşdirilir və sabitlənir.

### AVADANLIQ TƏMİZLİYİ

Tətbiq sonrası alət və avadanlıqlar dərhal su ilə təmizlənməlidir, bərkimiş material yalnız mexaniki olaraq təmizlənir.

## HÜQUQİ QEYDLƏR

Bu məlumat vərəqi, xüsusəndə, Sika məhsullarının tətbiqi və son istifadəçi üçün tövsiyyələri, doğru anbarlama, qarışdırma, və standard ətraf mühit şəraitində Sika təlimatlarına uyğun tətbiq olunmaqla əldə edilmiş bilik və təcrübəyə əsaslananan məsləhətlərdir. Praktikada, materiallardakı, səthlərdəki və faktiki sahə şərtlərindəki fərqliliklər səbəbi ilə, bu məlumat vərəqindən, hər hansı yazılı tövsiyələrdən və ya təklif olunan hər hansı digər məsləhətdən xüsusi bir tətbiq üçün uyğunluğu ilə bağlı nə bir zəmanət, nə də hüquqi münasibətdən irəli gələn hər hansı öhdəlik götürülə bilməz. Məhsulun istifadəçisi məhsulun nəzərdə tutulan xüsusi tətbiq və məqsəd üçün uyğunluğunu test etməlidir. Sika öz məhsullarının xüsusiyyətlərini dəyişdirmək hüququnu özündə saxlayır. Üçüncü şəxslərin mülkiyyət hüquqlarına riayət edilməlidir. Bütün sifarişlər mövcud satış və çatdırılma şərtlərimizə uyğun olaraq qəbul edilir. İstifadəçilər, məhsulun yerli Məhsul Məlumat Vərəqinin ən son nüsxəsinə istinad etməlidirlər. Məhsul Məlumat Vərəqini aze.sika.com internet səhifəsindən və ya sorğu əsasında info@az.sika.com poçt adresindən təmin edə bilərlər.

**Sika Azərbaycan MMC**
Sumqayıt Kimya Sənaye Parkı
Kimyaçılar küç.1, AZ5002
Sumqayıt E119
Telefon: +99412 585 10 11
Faks: +99412 585 10 12